# ÜMUMTƏHSİL MƏKTƏBİNDƏ YARADICI VƏ SAĞLAM MƏNƏVİ-PSİXOLOJİ MÜHİTİN YARADILMASI

**Reyhan Əzimova,**
*Abşeron rayonunun Gorədil kənd tam orta məktəbin fizika müəllimi*
E-mail: azimovareyhan2@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* Ə. Gərayev,
*ped.ü.fəls.dok.* M. Kazımov

***Açar sözlər:*** *müəllim, şagird, münasibət, psixologiya, müasir, sosial, aktual, bərabərhüquqlu, şəxsiyyətyönlü*

***Ключевые слова:*** *учитель, ученик, отношение, психология, современный, социальный, фактический, равный, ориентированный на личность*

***Key words:*** *teacher, pupil, attitude, psychology, contemporary, social, actual, equal, oriented on personality*

“Müəllim” elə bir peşədir ki, gərək ruhən anadan öyrədən doğulasan. Müəllimliyi sevmədən müəllim işləmək olmaz. O, elə bir simadır ki, onun qələminin mürəkkəbi "Şəhidin qanı" ilə bərabər tutulur. Hansı üsul və vasitələr olursa olsun hər bir müəllimin özünün auditoriyaya təsiretmə bacarığı onun şəxsi keyfiyyəti hesab olunur. Ona görə də müasir üsul və vasitələrlə yanaşı məktəbin, müəllimin, yaşadığımız mühitin psixoloji durumu həm auditoriyanı idarə etmək bacarığına, həm təlimin və təhsilin keyfiyyətinə təsir edən mən deyərdim ki əsas səbəblərdən biridir.

Keyfiyyətli təhsil vermək üçün müəllimin özünün də xüsusi keyfiyyət göstəriciləri olmalıdır. Müəllimin peşəkarlıq keyfiyyətləri dedikdə aşağıdakıları misal göstərmək olar:

1. Uşaq ruhundan və psixologiyasından anlamalı
2. Hər hərəkətiylə şagirdlərə nümunə olmalı
3. Təsir edici və ağıllı danışmalı
4. Müasir, sosial, aktual olmalı
5. Öyrətməyi sevən, öyrənməyi sevdirən bir adam olmalı
6. Hadisələrə bəzən şagird gözüylə baxa bilməli
7. Şagirdlərə hər zaman öz övladı kimi yaxınlaşmağı bacarmalı
8. Şagirdlərə qərəzsiz münasibət göstərməli
9. Süni rəftarlardan uzaq, mehriban anlayışlı olmalı
10. İşini çox sevməli
11. Şagirdlərin valideynləri ilə yaxşı dialoq qurmağı bacarmalı
12. Şagirdlər arasında hər nə şəkildə olursa olsun ayrı-seçkilik etmədən bərabər davrana bilməli
13. Müəllimlik etdiyi məktəbin adını ən yaxşı şəkildə təmsil edə bilməli
14. Şagirdlərini başqalarının yanında qorumalı
15. İntizamlı və idarəçi olmalıdır
16. Dərsdən kənarda da şagirdləri ilə maraqlanmalı
17. Qiymətləndirməni bir silah olaraq istifadə etməməli
18. Şagirdlərinin şəxsiyyətlərini və qürurlarını incidici sözlər danışmamalı
19. Səs tonunu qaldırmadan problemləri danışaraq həll etməli
20. Səbirli və dözümlü olmalı
21. Şagirdlərə ilk olaraq doğruluğu və dürüstlüyü öyrətməli
22. Şagirdlərinə müvəffəqiyyətli ola biləcəyinə inandırmalı və güvən hissi verə bilməli
23. Xarici görünüşünə önəm verməli
24. Şagirdlərini şəfqətlə sevərək onlarla duyğularını paylaşa bilməli
25. Dərs kitabları xaricində gündəlik həyatdan nümunələr verə bilməli

26. Hər zaman gülər üzlü ola bilməli
27. Öz şəxsi hadisələrini şagirdlərə hiss etdirməməli
28. Şagirdlərini öyrənməyə, inkişaf etməyə inandırmalı.
29. Şagirdlərə qarşı maraq və sevgisi olmalı
30. Nizam-intizamlı olmalı
31. Pedaqoq-psixoloq kimi düşünmək və müşahidə aparmaq bacarığı
32. Pedaqoji ədəbi
33. Pedaqoji nikbinliyi
34. Pedaqoji düşüncəsi
35. Təşkilatçılıq qabiliyyəti

Məktəbdə sağlam mənəvi–psixoloji mühitin yaradılması üçün birinci olaraq "valideyn - məktəb" münasibətlərini tarazlaşdırmaq lazımdır. Valideyn məktəb şagirdlərinin istinad etdiyi əsas sütundur. Ona görə də valideynlərlə iş elə aparılmalıdır ki onlar cəmiyyətdə gedən dəyişiklikləri qəbul etsinlər. Söhbət böyük şəhərlərdəki valideyn kontingentindən getmir. Hətta onların da bəzi hissəsi çox zaman cəmiyyətdə gedən dəyişikliklərə açıq olmur. Bu baxımdan kiçik kənd məktəblərində işləyən müəllim kollektivlərinin üzərinə çox böyük yük düşür. Bəzən şagirdlərin belə qəbul etdiyi yenilikləri onların yaşadıqları evlərdə qəbul etmirlər. Bu da dolayısı ilə təhsilin keyfiyyətinə təsir edir. Mənə elə gəlir ki, valideynlərlə işləyən komitələrə psixoloqlar da daxil edilməlidir. Ola bilər ki şüurlarda edilən yeniliklər (valideyn iclaslarında, komitələrlə aparılan işlərdə) bir məktəbin bütünlükdə işinin kökündən dəyişməsinə gətirib çıxara bilər.

Daha sonra "məktəb-şagird" münasibətləri qeyd etməmək mümkün deyil. Bu zaman hər bir şagirdin yaşadığı psixoloji mühit öyrənilməlidir. Sürətlə inkişaf edən cəmiyyətimizdə bəzən istər – istəməz bəzi ailələr cəmiyyətin bu dəyişiməyə tab gətirə bilmir. Ya maddi, ya da mənəvi cəhətdən cəmiyyətdən geri qalır. Məktəb və müəllim kollektivinin üzərinə düşən vəzifələrdən ən önəmlisi belə şagirdləri tez görə bilmək, onların problemlərini aşkar etmək, vaxtında və düzgün müdaxilə edərək onları sağlam cəmiyyətə qaytarmaqdan ibarət olmalıdır. Məktəb seçilmiş şagirdlərdən təşkil olunmur. Orda təhsil alan şagirdlər yuxarıda da qeyd etdiyim kimi müxtəlif həyat prinsipləri olan ailələrdən gəlir. Məktəbin vəzifəsi isə məktəbdə elə sağlam psixoloji mühit yaratmaqdır ki, hər kəs oradan öz payını götürə bilsin. Bu isə bir başa təhsilin keyfiyyətinə təsir edəcək.

İctimai-iqtisadi formasiyaların dəyişdiyi dövrlərdə həmişə önə çıxan problemlərdən biri də maddi problemdir. Maddiyyətə toxunmağım əbəs deyil, hər bir şagird müxtəlif maddi duruma malik olan ailələrdən gəlir. Maddi durum şagirdin davranışına, təhsilinə təsir edən əsas amillərdən biridir. Ona görə də məktəbdə "şagird-şagird" münasibətləri düzgün qurulmalıdır. Elə şərait yaratmaq lazımdır ki, maddi psixoloji ünsürlər tamamilə aradan qalxsın. Bunu o zaman etmək mümkündür ki məktəbdə şagird yalnız biliyinə görə seçilsin. Təriflər, alqışlar onun elmi uğurlarına yağdırılsın. Belə olduğu halda məktəbdə sağlam rəqabət inkişaf edər. Hər bir şagird daha yaxşı oxumağa çalışar.

Nəhayət məktəbin əsas psixoloji sütunu hesab edilən "müəllim-şagird" münasibətləri. Müasir şagird o qədər məlumatlıdır, o qədər çevik dəyişir ki, daha illər öncə istifadə etdiyimiz üsullar şagirdi özünə bağlaya bilmir. Bunun üçün müəllim elə üsul və vasitələr tapmalıdır ki, şagird birinci müəllimi sonra onun fənnini sevsin.

Bunun üçün müəllim özünü bir şəxsiyyət kimi sevdirməlidir. Müəllim şagirdin gözündə bir simvola çevrilməlidir. Davranışı, danışığı və hərəkəti belə nümunə olmalıdır. Şagirdin psixikasını oxuya bilməlidir. Bəzən şagirdə edilən adi bir düzgün yanaşma onun həyatını elə bir məcraya yönəldər ki, o gələcəkdə vətəninə, xalqına bağlı, ölkəsinə xeyirli bir vətəndaşa çevrilər. Bunun əksini isə heç təsəvvür belə etmək istəmirəm.

Müasir şagird elmi–texnoloji aləmdə, bütün informasiyaların mobilləşdiyi bir dövrdə yaşayır. Bu vaxtlar "Sehrli xalat" filmində gördüyümüz və bizə nağılı xatırladan "Televidieofon" indiki gəncliyin, eləcə də hər bir vətəndaşın gündəlik yaşam tərzinə çevrilən "görüntülü" yazışmaları hələ demirəm. Elmi texniki inqilablar baş verdikcə insanlar daha çox asudə vaxta malik olurlar. Fizika dili ilə desək daha az vaxt və enerji sərf edərək daha çox iş görürlər. Bu səbəbdən şagirdlərdə illər öncəki şagirdlərdən daha hiperaktiv, daha hərəkətli və daha tələbkardırlar. Bu baxımdan müəllim – şagird münasibətlərində daha diqqətli olmaq lazımdır. Gənc nəsil ta keçmişdən bu yana onlara güvənilməsini istəyən, dediyinin doğru olduğuna inanan (bu

səhv olsa belə) bir xarakterə malik olur. Güclü müəllim pedaqoji ustalıq nümayiş etdirərək hər bir şagirdi öz doğrusu və səhvləri ilə qəbul etmək, əsas məqsədinin öyrətmək olduğunu unutmamalıdır. İstisna hallarda belə müəllim təmkin və səbrini itirməməlidir.

Bütün bunların önündə isə müəllimin bir şəxsiyyət kimi cəmiyyətdəki mövqeyi və yeridir. Düzdür bu sözdə belədir, amma etiraf etmək lazımdır ki, son zamanlarda müəllimin nüfuzunun aşağı düşməsi məktəbdə "müəllim-şagird" münasibətlərinə təsirsiz ötüşməmişdir. Bu isə öz növbəsində təhsilin keyfiyyətinə mənfi təsir göstərdiyi məlumdur.

Müəllimi təbliğ etmək, onun nüfuzunu artırmaq bir az da kütləvi – informasiya vasitələrinin, incəsənət xadimlərinin, yazarların üzərinə düşür. Onlar bilməlidirlər ki, elmi, məktəbi təbliğ etməklə gələcək övladları və gələcəyə xidmət etmiş olurlar.

Bütün bunlardan başqa məktəbdə müəllim və şagirdlərin psixoloji durumuna təsir edən amillərdən biri də mənə görə dərs saatlarının həftəlik və günlük bölgüsündə olan çatışmazlıqlardır.

Hər birimizə məlumdur ki, istər şagird olsun, istərsə də müəllim, insanın bir mühitdən digərinə adaptasiya olunması üçün müəyyən zaman lazımdır. Gün ərzində 5-6 saatlıq dərs prosesində şagirdlər, eləcə də müəllimlər qısa zaman kəsiyində bir dərsdən digərinə uyğunlaşma prosesi ilə qarşılaşırlar. Eyni zamanda bir müəllimin təsirindən digərinə keçməyə məcbur olurlar.

Hər kəs bilməlidir ki, müəllimsiz məktəb, şagirdsiz isə müəllim yoxdur. Savadlı, elmi – texniki tərəqqiyə, güclü psixologiyaya malik müəllimi, intellektual biliyə, dünya görüşünə malik, ağıllı, vətənpərvər şagirdi olmayan millətin gələcəyindən danışmaq olmaz.

Gəlin övladımıza düzgün yol göstərək, onlara güclü təhsil verək, peşə öyrədək beləliklə hər birimiz Azərbaycanımızın inkişafına öz töhfəmizi verək !

**Problemin aktuallığı**. Müəllim nüfuzunu ilk növbədə müəllim özü qazanmalıdır. Bu, ilk təəssüratdan başlamış ömrün sonunacan yüksələn xətlə davam edən, son dərəcə məsuliyyətli bir prosesdir. Müəllim nüfuzu yalnız özü üçün deyil, arxadan gələn müəllim nəsilləri üçün qazanmalı və qoruyub saxlamalıdır.

**Problemin elmi yeniliyi.** Keyfiyyətli təhsil vermək üçün müəllimin özünün xüsusi keyfiyyət göstəriciləri olmalıdır. Məqalədə bu keyfiyyət göstəriciləri açıqlanmışdır.

**Problemin praktik əhəmiyyəti.** Sağlam-mənəvi psixoloji durumu müsbət olan müəllim şagirdlərlə düzgün davranar, bu da onun keyfiyyətli təhsil almasına gətirib çıxarır.

## ƏDƏBİYYAT

1. Abbasov A., Əlizadə Ə. Pedaqogika. Bakı, 2000.
2. Cavad Ə, Məlikova Z. Məktəblərdə müasir psixoloji xidmətin təşkil edilməsi və tənzimlənməsi Metodik vəsait. Bakı, 2013.
3. Cəlilova G.D. Şagirdlərin şəxsiyyət kimi formalaşmasında məktəb psixoloqunun rolu. /Bakı. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil Texnologiyaları nəşriyyatı, 2017.
4. Çələbiyev N.Z. Təhsil sistemində psixoloji xidmət. Nəzəriyyə və təcrübə: dərs vəsaiti, 2 hissədə. Bakı: ADPU, 2008, 2009.
5. Əliyev P., Əhmədov H. "Təhsil müəssisələrində tərbiyə işinin təşkili". Bakı, 2004.
6. Əmrahlı L. "Məktəb psixoloqu metodik vəsait". Bakı, 2014.
7. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri . Bakı, 2004.
8. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, 2006.

**Р. Азимова**

## СОЗДАНИЕ ЗДОРОВОЙ МОРАЛЬНО-ПСИХОЛОГИЧЕСКОЙ СРЕДЫ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***РЕЗЮМЕ***

Для обеспечения качественного образования учитель должен иметь конкретные показатели качества. В статье излагаются профессиональные качества преподавателя и условиях необходимых для создания здоровой, морально-психологической среды в школе.

**R. Azimova**

## CREATION OF CREATIVE AND HEALTHY MORAL - PSYCHOLOGICAL ENVIRONMENT AT SECONDARY SCHOOLS

***SUMMARY***

Physics teacher at secondary school of Goradil village in Absheron region

In order to provide quality education, the teacher must have specific quality indicators. The article outlines the professional qualities of the teacher, the conditions necessary for creating a healthy, moral - psychological environment in the school.

**Redaksiyaya daxil olub:** 30.10.2017